DOI: 10.36719/AEM/2007-2020/54/169-172

**Arzu Fazil qızı Haşımova**
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası
e-mail: arzuhashimova@mail.ru

# MÜASİR RƏSSAMLARIN YARADICILIĞINDA BAKI TƏSVİRLƏRİ

***Açar sözlər:*** *Müasir incəsənət, rəngkarlıq, Bakı, kompozisiya, mənzərə*
***Key words:*** *Contemporary art, painting, Baki, composition, landscape*
***Ключевые слова:*** *Современное искусство, живопись, Баку, композиция, пейзаж*

## Giriş

XX əsrin 70-80-ci illərindən başlayaraq rəngkarlıq sahəsində yeni meyllərin yaranmasını xüsusilə vurğulamaq lazımdır. Yaradılan təsvirlərdə primitivlik, şərtilik, deformasiya və s. üsullar özünü büruzə verirdi. Artıq 1990-cı illərdə Azərbaycan Respublikası müstəqil dövlət elan olunandan sonra incəsənətdə də yeni tendensiyalar yaranır. Rəssamlar azad yaradıcılığa meyl edərək avanqard cərəyanlardan və konseptual incəsənətdən faydalanaraq öz fərdi dəst-xətlərini formalaşdırırdılar.

Azərbaycan təsviri sənət tarixində avanqard istiqamətinin ikinci dalğasının təməlini qoyan, Abşeron rəssamlıq məktəbinin banisi Mircavad Mircavadov olmuşdur. Bu məktəbin nümayəndələri Bakı ətrafı əraziləri, qəsəbələri gəzərək burada yaşayan insanların gündəlik həyat və məişətini təsvir edirdilər. Novator rəssam milli ənənələr ilə yanaşı dünya incəsənətinin ənənələrindən bəhrələnərək yaradıcılığını zənginləşdirmişdir.

Abşeron rəssamlıq məktəbinin nümayəndələrindən Tofiq Cavadov, Əşrəf Murad, Qorxmaz Əfəndiyev, Kamal Əhməd, Rasim Babayev, Fərhad Xəlilov, Nazim Rəhmanov, Əlövsət Əliyev və b. qeyd etmək olar.

Bu dövrdə rəssamlar mənzərə janrına müraciət edərək Bakını və ətraf ərazilərin, qəsəbələrin təsvirlərini əks etdirirdilər. Abşeronun özünəməxsus təbiəti, Bakının ecazkar görünüşü daim rəssamların müraciət etdiyi mövzu olmuşdur.

Azərbaycanın təsviri sənətində qeyri adi dəst-xətti ilə fərqlənən rəssamlardan biri Əşrəf Muradoğludur. Nonkonformist rəssam həm milli, həm də avanqard sənətdən bəhrələnərək bir sıra təsvirlər yaratmışdır. Yaradıcılığının erkən mərhələsində rəssam daha çox açıq çalarlarla, həyatiliyi ilə fərqlənən təsvirlər yaradırdısa, bir müddət sonra həyatında baş vermiş hadisə ilə əlaqədar olaraq yaratdığı tablolar dramatikliyi ilə xarakterizə olunurdu. Təsvir etdiyi tablolarda daha çox dövrün ictimai siyasi mövzularını öz fərdi təxəyyülünə əsasən əks etdirmişdir. Əşrəf Muradoğlunun yaratdığı əsərlər monumentallığı, qalın rəng yaxmaları, isti və soyuq çalarların üstünlüyü ilə fərqlənir. Lakin mənzərə janrında yaratdığı əsərlər işıqlı, nikbin görünüşü ilə diqqəti cəlb edir. Rəssamın Bakıya həsr etdiyi "Funikulyor" (1973),adlı əsərini qeyd etmək olar. [7]. Kompozisiyanın ön hissəsində funikulyorun qarşısında Nizami Gəncəvinin "Yeddi gözəl" poemasının qəhrəmanı Bəhram Gurun heykəlinin təsviri əsərə monumental görünüş bəxş edir. Əlvan rəng qammaları ilə təsvir olunan kompozisiya nikbin, lirik abu havası ilə fərqlənir.

Yaratdığı əsərlər vasitəsilə insanı dərindən düşünməyə vadar edən rəssam MirNadir Zeynalovdur. Rəssam Abşeron rəssamlıq məktəbinin ənənələrindən bəhrələnən rəssamlarımızdandır. Yaradıcılığında milli elemetlərlə yanaşı, mücərrəd formalardan, kollaj, foto, assamblyaj və instalyasiya elementlərindən istifadə etməklə özünəməxsus tərzdə böyük maraq doğuran əsərlər yaratmışdır. Doğulub boya başa çatdığı Buzovna qəsəbəsinin eləcə də digər Bakı ətrafı ərazilərin təsviri rəssamın yaradıcılığında müxtəlif rakurslarda və üslublarda təqdim olunur. Bakı və doğma Abşeronu müxtəlif fəsillərdə, günün müəyyən vaxtlarında təsvirlərini yaradır. Bu mənzərələr poetikliyi, emosionallığı, lirikliyi və harmonik rəng qammaları ilə diqqəti cəlb edir. Kompozisiyalarda MirNadir Zeynalovun yaratdığı mənzərələr insana müsbət enerji ötürür. Rəssamın "İncəsənət duadır, işlədikcə elə bil dua edirsən" fikri onun sənətə ruhu ilə bağlı olduğunu açıqlayır.[2]

Azərbaycan rəngkarlığında parlaq boyalarla paytaxtımızın gözəl mənzərələrini əks etdirən rəssam İsa Məmmədovdur. Rəssam müxtəlif janrlarda əsərlər yaratmasına baxmayaraq mənzərə janrında yaratdığı əsərlər üstünlük təşkil edir. Onun yaradıcılığı impressionizm cərəyanın təsvir metodlarını xatırladır. Rəssam təbiətdən duyduğu təəssüratları incə koloritlə kətana köçürmüşdür. Rəssamın doğma şəhərə olan sevgisi paytaxtın gözəl mənzərələrini yaratmasına səbəb olmuşdur. Bakının əsrarəngiz görüntülərini əks etdirən tablolardan "Bakı mənzərəsi" (2005), "Dənizkənarı milli park" (2007), "Fəvvarələr meydanı" (2006), "Bakı motivi" (2005), "Bakı vağzalı" (2007), "İçərişəhər", "Bakı" və s qeyd etmək olar [1]. Rəssam bu təsvirlərdə hər mövsümə uyğun olaraq təbiətin dəyişkənliyini əks etdirmişdir. O, işıq kölgəni, isti soyuq çalarların vəhdətini yaratmaqla kompozisiyaya ifadəlilik vermişdir.

Bakı şəhərinin mənzərələrini əsərlərində özünəməxsus şəkildə canlandıran rəssamlarımızdan biri əməkdar rəssam Eldar Qurbanovu xüsusilə qeyd etmək lazımdır. Rəssam primitiv üslubda bir çox janrlarda müxtəlif əsərlər yaratmışdır. Rəngləri həssaslıqla duyan rəssam yaratdığı hər bir mənzərə əsərində saf, sadə, səmimi hissləri tamaşaçıya ötürməyi bacarır. Onun yaratdığı kompozisiyalar ümumiləşdirilmiş formalar ilə diqqəti cəlb edir.




***Eldar Qurbanov. "Bakı mənzərəsi"***

Eldar Qurbanov Bakı şəhərinin görüntüsünü əks etdirən "Bakı silsiləsi" adlı əsərlər yaratmışdır. "Bakıda küçə"(1999), "Bakı mənzərəsi", "Qız qalası", "Parklar silsiləsi", "Dəniz kənarı park" və s. adlı əsərlər buna misaldır. [6]. Bu təsvirlərdə Bakının simvollarından olan Qız qalası, mavi Xəzər dənizi, bir sıra mühüm əhəmiyyətli binalar təsviri ilə rastlaşırıq. İlk baxışdan bu təsvirlər primitiv görünsədə kompozisiyaların ritmik şəkildə qurulması, obyektlərin asimmetrik yerləşdirilməsi, isti soyuq çalarların verilməsi əsərə dekorativlik və dinamika bəxş edir. "Parklar silsiləsinə" daxil olan hər bir təsvirin arxa fonunda dənizin, gəmilərin, kompozisiyanın ön planında isə ağaclar, çiçəklər, bəzi təsvirlərdə insanların primitiv şəkildə əks olunan obrazları istirahət anında təsvir olunmuşdur. Əsərdə əlvan, şux, dekorativ rənglərin istifadəsi tabloya xoş əhval ruhiyyə aşılamışdır.

Rəssam bir çox beynəlxalq sərgilərin iştirakçısıdır. Onun əsərləri Azərbaycanda eləcə də xaricdə bir sıra qalereyalarda, şəxsi kolleksiyalarda saxlanılır.

Azərbaycan boyakarlığında zəngin, maraqlı yaradıcılığa malik rəssam Qəyyur Yunusdur. Rəssam yaradıcılığında şərq miniatürü və Qacar rəssamlıq məktəbinin ənənələrini tətbiq etməklə özünəməxsus tərzdə mühüm əsərlər yaratmışdır. Rənglərin vurğunu olan rəssam hər bir əsərini rənglər vasitəsilə canlandırır, izləyicisini düşündürür və tabloya fəlsəfi məna verir. Qəyyur Yunus yaradıcılığında Bakı təsvirlərinə müraciət etmişdir. "Bakı", "Abşeron axşamı", "Bakı küləyi", "Xəzərin sahilində", "Qədim Xilə", "Əmircan", "Mərdəkan mənzərəsi", "Bülbülədə şor qırağı", "Zirə bağlarında" adlı əsərlərini qeyd etmək olar. Rəssamın "Abşeron bağlarında"(2005) adlı əsəri qarışıq kompozisiya quruluşuna, təzadlı rəng qammalarına görə diqqəti cəlb edir. "Əmircan mənzərəsi" (2006) əsərində isə mavi və boz çalarlardan istifadə edərək Əmircanın sakit, həzinli mənzərəsini yaratmışdır. Kompozisiyanın mərkəzində məscid, ön planda isə tənha ağac təsvir olunmuşdur. Rəssamın digər əsərlərində gördüyümüz şərq fəlsəfəsi, Allah sevgisi, İslami dəyərləri bu mənzərəsində də duya bilərik. Rəssam hər bir əsərini fərqli abu havada özünəməxsus şəkildə təsvir etmişdir.

Azərbaycan təsviri sənətində özünəməxsus yaradıcılığa məxsus olan rəssam Zakir Hüseynov olmuşdur. Yaradıcılığında milli ənənələrə üstünlük vermişdir. Rəssam xüsusilə mənzərə janrında yaratdığı əsərlər

üstünlük təşkil edir. Əsərlərində İçərişəhərin və anadan olduğu Abşeron təbiətinin bənzərsiz gözəlliklərini yaratmışdır. Lirik və sərbəst yaxmaları ilə müasir rəngkarlıqda unudulmaz əsərlər yaratmışdır. Onun əsərləri nikbin əhval ruhiyyəyə malikdir. Rəssam öz daxili dünyasının zənginliyini, hiss etdiyi gözəllikləri rənglər vasitəsilə əks etdirməyə nail olmuşdur. Rəssamın Bakı mənzərələrinə "İçərişəhər"(2000), "Xəzər dənizi" (2004), "Abşeron mənzərəsi", "Əmircan", "İçərişəhər" (2004), "Buzovna" və s. adlı əsərləri misal göstərmək olar. [6] Bakının müxtəlif görüntülərini əks etdirən bu təsvirlərdə zəngin kolorit diqqəti cəlb edir. Rəssam isti soyuq çalarların vasitəsilə yaratdığı mənzərələrə aydın, parlaq, lirik, emosional görünüş bəxş etmişdir. Mənzərələrin hər biri günəş işığı ilə bol işıqlandırılmış, aydın səma, mavi dəniz kompozisiyada nikbin, romantik abu hava yaratmışdır.

Bakı təsvirlərinə müraciət edən müasir dövrdə fəaliyyət göstərən rəssamlarımızdan biri Tofiq Qəzənfərdir. Rəssam şəhərin müxtəlif görüntülərini əks etdirən tablolar yaratmışdır. Bu əsərlərdən "Şirvanşahlar sarayı" (2009), "Filarmoniya" (2009), "Bakı" (2013), "Liman", "İçərişəhərdən bir görünüş" (2008), "Şirvanşahlar" (2005), "Köhnə şəhər" (2007), "Bakı şəhərindən bir görünüş" (2008), "Bakı motivi" (2008) adlı təsvirləri qeyd etmək olar. Rəssamın yaradıcılığını fərqləndirən cəhətlərdən harmonik rəng qammaları, bir qədər primitiv təsvirlər, dəqiq xətt, yüksək baxış bucağından təsvirlər və s. qeyd etmək olar. "Filarmoniya" adlı əsərində rəssam yüksək baxış bucağından Bakının simvollarından olan Qız qalası, qala divarları, bir sıra tikililər, arxa planda isə Xəzər dənizinin təsvir yer almışdır. İsti soyuq çalarların vəhdəti əsərə dekorativlik vermişdir. "Şirvanşahlar sarayı" adlı əsərində bir sıra mühüm memarlıq abidələri, Qız qalası, Şirvanşahlar sarayı, mavi dəniz təsvir olunmuşdur. Əsərin koloritinə gəldikdə isə ağ və mavi tonların vəhdəti kompozisiyaya nikbin əhval ruhiyyə bəxş etmişdir.

Azərbaycanın müasir təsviri sənətində xüsusi yeri olan Altay Sadıqzadə qeyri adi yaradıcılığı ilə fərqlənən rəssamlardan biridir. Axır zamanlar rəssam əsasən konseptual layihələri ilə məşhurdur. Lakin rəngkarlıq sahəsində də maraqlı özünəməxsus kompozisiyaların müəllifi kimi də çıxış edir. Rəssamın rəngkarlıq əsərləri primitiv görünüşə və zəngin, parlaq koloritə məxsusdur. Altay Sadıqzadə qrafik təsvirlərdən təsirlənərək öz işlərində bu formalara müraciət edərək, sanki boyanmış yazılar təsvir edir. O, yaradıcılığının müxtəlif dövrlərində emosional, canlı rəng tonlarından tünd rənglərə qədər keçid etmişdir. Rəssamın yaradıcılığında Bakı təsvirlərinə geniş yer verərək doğma şəhərə olan bağlılığını vurğulamışdır. Rəssamın Bakı mənzərələrinə aid təsvirlərdən "Ay işığı. Bakı" (2018), "Neftçilər prospekti (2018), "İçərişəhər silsiləsi", "Bulvar mənzərəsi", "Hökumət evi", "Bakı mənzərəsi" və s. adlı əsərləri qeyd etmək olar. [1] O, yaratdığı təsvirlərdə qroteskdən istifadə edərək tamaşaçını əyləncəli xəyali bir dünyaya aparır. Bakının küləklər şəhəri olmasını rəssam mənzərələrində təsvir etdiyi əyilmiş, maili formalar sanki küləyin hərəkətini hiss etdirir. Bu təsvirlərə ümumiləşdirilmiş formalar, dinamika, rəngarəng kolorit və ritm xasdır. Rəssamın "Ay işığı. Bakı" adlı əsərində axşam vaxtı şəhərin görüntüsü canlandırılmışdır. Kompozisiya quruluşu qarışıq həll olunmuşdur. Əsər sanki iki hissəyə ayrılmışdır, mərkəzdə isə yol boyunca hərəkət edən maşınlar ardıcıl şəkildə sanki üst üstə təsvir olunmuşdur. Kompozisiyanın hər iki tərəfində ictimai binalar, ağac təsvirləri, arxa fonda yuxarı hissədə isə ay işığında dalğalanan üç rəngli bayrağımızın təsviri əks olunmuşdur. Dekorativ çalarlar təsviri əsərə dinamika bəxş etmişdir. Rəssamın "Bulvar mənzərəsi" adlı tablosunda tutqun, küləkli bir gündə bulvarın mənzərəsi təsvir olunmuşdur. İlk baxışdan primitiv təsir bağışlayan kompozisiyanın ön hissəsində ritmik şəkildə hərəkət edən maşınlar, arxa planda isə çoşqun dəniz təsvir olunmuşdur. Küləyin təsirindən çoşan dalğalar sanki sahilə tərəf irəliləyir. Kompozisiyada soyuq çalarlar üstünlük təşkil edir. Mənzərə insanda gərginlik, həyəcan yaradan bir əsərdir.

## Nəticə

Azərbaycan rəngkarlığında XX əsrin II yarısından başlayaraq müasir dövrüməzədək yaranan novatorluq meyilləri rəssamların yaradıcılığında yeni mövzulara və ifadə üsullarına yol açdı. Müasir rəssamlar yaradıcılıqlarında Bakı şəhərinin qədim və yenilənən görüntülərini yeni təsvir metodlarından istifadə edərək maraqlı özünəməxsus tablolar yaradırlar.

## Ədəbiyyat

1. Azərbaycan Rəssamlar İttifaqı. Müasir Azərbaycan Təsviri sənət sərgisi // Kataloq. Bakı, 2006, 176 s.
2. Əsgərova X. XX əsr Azərbaycan Boyakarlığının inkişafı. Dərs vəsaiti. Bakı,2015. 187 s.
3. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı. Şərq-Qərb 2007.160 s.
4. Müasir Azərbaycan memarlığı və incəsənəti. Bakı: Elm, 1992, 224 s.
5. www.yarat.az
6. www.pinterest.com
7. www.azgallery.az

**Baku descriptions in the works of modern artists**

**Summary**

Baku has always been a topical issue in the work of artists. The presented article gives brief information about the works of modern Azerbaijani artists. Important works on Baku descriptions are analyzed.

**Изображение Баку в творчестве современных художников**

**Резюме**

Город Баку всегда был одним из актуальных тем в творчестве азербайджанских художников. В предлагаемой статье информативного характера даются краткие сведения о творчестве современных художников Азербайджана, а также исследуются значимые полотна, на которых изображен Баку.

**Rəyçi: dos. X.Əsgərova**

Göndərilib: 31.05.2020 Qəbul edilib: 02.06.2020